**DAŞINMAZ ƏMLAKIN İSTİSMARI İLƏ BAĞLI MÜLKİ MƏSULIYYƏTİN İCBARİ SIĞORTASI ÜZRƏ**

**YADDAŞ VƏRƏQƏSİ**

**<u>Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası</u>** müvafiq (yəni sığortalanmış) əmlakın istismarı, o cümlədən həmin əmlakın ərazisində inşaat, təmir, yenidənqurma və ya digər işlərin həyata keçirilməsi zamanı elektrik və ya qaz cihazlarından istifadə nəticəsində yaranan yanğın, qaz partlayışı, elektrik naqillərində baş verən qısa qapanma, su, istilik və kanalizasiya xətlərində baş verən qəza nəticəsində subasma və hər hansı predmetin və ya onun hissələrinin düşməsi, atılması, dəyməsi, dağılması, axıdılması və digər bu kimi formalarda təsiri nəticəsində zərərçəkən üçüncü şəxslərin sağlamlığına və əmlakına dəyən zərərin əvəzinin ödənilməsini nəzərdə tutur.

## <u>Sığortalının (sığorta olunanın) mütləq bilməli olduğu məsələlər</u>

**Hadisə baş verdikdə nə etməli?**

1. Hadisə baş verdikdə sığorta şirkətinə (+994 50) 275 86 89 telefon nömrəsi vasitəsilə dərhal məlumat verin. Məlumatda aşağıdakılar bildirilməlidir:
   - Sığortalının (sığorta olunanın) soyadı, adı, atasının adı;
   - Sığorta şəhadətnaməsinin nömrəsi;
   - Hadisənin baş verdiyi tarix, vaxt və yer;
   - Dəymiş zərərin ilkin təsviri
   - Ehityac olduqda digər məlumatlar.
2. 112 xidməti vasitəsi ilə Fövqəladə Hallar Nazirliyinə dərhal məlumat verin.
3. Sağlamlığa zərər dəydikdə 103 xidməti vasitəsi ilə Səhiyyə Nazirliyinin Təcili Tibbi Yardım Xidmətinə dərhal məlumat verin.
4. Zərər dəymiş əmlakı sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə sığorta şirkətinə (və ya onun nümayəndəsinə) təqdim edin. Aşağıdakı hallarda zərər dəymiş əmlakı sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə təqdim etmək vəzifəsi istisna edilir:

   - *zərərin qarşısının alınması və ya həcminin azaldılması üçün zəruri tədbirlərin görülməsi zamanı;*
   - *sığorta hadisəsinin nəticələrinin aradan qaldırılması, yaxud digər fəsadlara səbəb olmaması üçün zəruri tədbirlərin görülməsi zamanı;*
   - *zərər dəymiş əmlakın sonrakı itkiləri üçün təhlükə ehtimalına səbəb ola bilən nəzarətsiz halda qalmaması üçün zəruri tədbirlərin görülməsi zamanı;*
   - *zərər dəymiş əmlakın başqa şəxslərin hərəkətinə və ya fəaliyyətinə mane olmaması üçün zəruri tədbirlərin görülməsi, o cümlədən bu məqsədlə əmlakın hadisə yerindən kənarlaşdırılması zamanı;*
   - *sığorta hadisəsi barədə məlumatlandırıldıqdan 5 gün müddətində sığorta şirkətinin nümayəndəsi zərər dəymiş əmlaka baxış keçirmədikdə;*
   - *digər hallarda zərər dəymiş əmlakın sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə saxlanmamasına sığortaçının yazılı razılığı olduqda.*

5. Sığorta şirkətinin nümayəndəsinin təlimatlarına riayət edin.

**Sığorta ödənişinin verilməsindən imtinanın əsasları**

Aşağıdakı hallarda sığorta ödənişi verilmir:

1. Hadisə və ya hal hərbi əməliyyatlar, terrorçuluq, kütləvi iğtişaşlar, nüvə partlayışı, radioaktiv çirklənmə ilə bağlı olduqda;
2. Sığorta tələbi üçüncü şəxsin pul, qiymətli kağızlar, qiymətli metallar və qiymətli daşlar, sənət əsərləri, o cümlədən rəsm əsərləri, qravüralar, heykəllər, həmçinin modellər, plan və eskizlər, ixtira patentləri, sənədlər, kitablar və yazılar şəklində olan əmlakına dəymiş zərərlə bağlı olduqda;
3. Sığorta tələbi mənəvi zərərlə və ya gəlir itkisi ilə bağlı olduqda;
4. Sığorta tələbi sığortalının və ya sığorta olunanın cərimə, dəbbə pulu, peniya ödəməsi üzrə əmlak mənafeləri ilə bağlı olduqda;
5. Sığorta hadisəsi barədə məlumatlandırma ilə bağlı qanunvericiliyin tələbinə əməl edilməməsi nəticəsində sığorta şirkəti hadisənin sığorta hadisəsi olub-olmamasını müəyyənləşdirmək imkanından məhrum olduqda;
6. Zərər dəymiş əmlakın sığorta şirkətinə təqdim edilməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tələblərə riayət edilməməsi və ya qanunvericiliklə müəyyən edilmiş hallar nəzərə alınmaqla, sığorta hadisəsi barəsində sığortalının sığorta şirkətinə qəsdən yanlış məlumat verməsi nəticəsində sığorta şirkəti sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olduqda;
7. Faydalanan şəxs zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən aldıqda;
8. Baş vermiş hadisə icbari sığorta qanunlarına görə sığorta hadisəsi hesab edilmədikdə.

***Qeyd:***

1. *Sığortaçı sığorta hadisəsinin baş verməsi barədə məlumatlandırıldığı tarixdən 7 iş günü müddətində əmlaka dəymiş zərərin məbləğinin qiymətləndirilməsini təşkil etmədikdə sığortalı, sığorta olunan, həmçinin zərər çəkmiş üçüncü şəxs qiymətləndirmə fəaliyyəti ilə məşğul olan müstəqil ekspert və ya mütəxəssis vasitəsilə əmlaka dəymiş zərərin ədalətli şəkildə qiymətləndirilməsinə və aradan qaldırılmasına başlaya bilər.*

2. *Sığorta ödənişi, həmin ödənişin verilməsi üçün tələb olunan bütün sənədlərin toplandığı tarixdən ən geci 7 iş günü müddətində ödənilmədikdə, sığortalı, sığorta olunan, həmçinin zərər çəkmiş üçüncü şəxsin hər gecikdirilmiş gün üçün sığorta ödənişi məbləğinin 0,1 faizi həcmində dəbbə pulu almaq hüququ vardır.*